FƏSİL 9.
Gender bərabərliyi və insan inkişafı

Gender bərabərliyi özü-özlüyündə bir məqsəd olmasından əlavə, həm də yoxsulluğun azaldılması, davamlı inkişafın təmin olunması və səmərəli idarəçiliyin qurulması üçün zəruri olan şərtdir.

Kofi Annan, BMT keçmiş baş katibi

İnsan inkişafı uzun, sağlam və yaradıcı həyat sürmək, dəyər verdikləri hər hansı məqsədlərə nail olmaq və hamı üçün ümumi olan planetdə ədalətli və dayanıqlı inkişafa fəal surətdə qoşulmaq üçün insanların azadlıqlarının genişləndirilməsi deməkdir. İnsanlar istər fərd kimi, istərsə də qrup olaraq insan inkişafının həm benefisiarları, həm də aparıcı qüvvələridir.

İnsan İnkişafı Hesabatı, 2010-cu il

9.1 İnsan inkişafı, insan qabiliyyətləri və bərabərlik

İnsan inkişafı həyatda qarşımızda duran seçimlərin genişləndirilməsindən ibarətdir. Təbii ki, insanların arzuladıqları, seçdikləri məqsədlər saysız-hesabsızdır və hətta eyni insanın arzu və məqsədləri zamanla dəyişə bilər. İnsan inkişafı nəzəriyyəsi bu müxtəlifliyin içərisindən ən zəruri üc seçimi belə müəyyən edir:

- uzun və sağlam həyat sürmək;
- istədiyi biliklərə yiyələnmək;
- ləyaqətli həyat üçün zəruri olan ehtiyatları əldə etmək[1].

Yuxarıda qeyd olunan seçimlər cinsi, yaşı, maliyyə durumu, dini, milli və sosial statusundan asılı olmayaraq hər insan üçün təmin olunmayınca, real insan inkişafına nail olmaq mümkün deyil.

Artıq bildiyiniz kimi, insan inkişafı nəzəriyyəsinin mərkəzində insanlarin azad seçim anlayışı dayanır. Qlobal və yerli iqtisadi, sosial və mədəni inkişafın əsas məqsədini məhz insan həyatının keyfiyyətinin artırılmasında görən bu yanaşma nədən məhz azad seçim məsələsinə bu qədər böyük diqqət yetirir? Məsələ burasındadır ki, insan inkişafı nəzəriyyəsi təkcə bərabər hüquq və imkanların yaradılması tələbi ilə kifayətlənməyərək məhz konkret insanların mövcud hüquq və imkanlardan istifadə etmək qabiliyyətində olmasını inkişafın əsas amili olaraq görür. İnsan inkişafı nəzəriyyəsinin ərsəyə gəlməsində mühüm rol oynayan Marta Nissbauma görə "insan qabiliyyətləri" (human capabilities) "insanların real həyatda istədiyinə nail olmaq və istədiyi fəaliyyətlə məşğul ola bilmək bacarığı-

[1] BMTİP İnsan İnkişafı Hesabatı, 1999-cu il

nı" əks etdirir[2]. Insan qabiliyyəti heç də həmişə sırf fərdi xüsusiyyətlərdən asılı deyil. İnsan inkişafı nəzəriyyəsinə əsasən insan qabiliyyəti bir sıra sosial, iqtisadi və mədəni amillərin təsiri nəticəsində əmələ gəlir. Bu amillər içərisində konkret sosial mühitdə insanların cinsi mənsubiyyətinə görə rastlaşdığı məhdudiyyətlər mühüm yer tutur. Gəlin bu yanaşmanı adi bir misalda araşdıraq.

Böyük şəhərdə, qonşuluqda, oxşar iqtisadi və sosial şəraitdə üç qız böyüyür. Qızlar eyni orta məktəbi eyni qiymətlərlə bitirir. Lalə eyni ildə istədiyi ali təhsil müəssəsinə sənədləri təqdim edir. Səidə ali təhsil almaq istəyir, lakin ailəsi qız üçün ali təhsilin faydasız olduğunu düşünür. Ailəsinin qadağası nəticəsində Səidə arzusundan vaz keçməli olur. Cəmilə isə valideynləri ilə məsləhətləşib qərar verir ki, məktəbi bitirəndən sonra işə düzəlib ali təhsildə ixtisas seçimini bir ildən sonra etsin.

Hər üç halda, milli qanunvericiliyə əsasən, qızların təhsil almaq hüququ var. Praktiki olaraq imkanlar da mövcuddur (şəhərdə onlarla ali təhsil ocağı fəaliyyət göstərir, hər üç qız kifayət qədər hazırlıqlı və biliklidir, ailələri maddi cəhətdən çətinlik çəkmir). Fərq ondadır ki, Lalə mövcud hüquq və imkanlardan istifadə etmək qabiliyyətindədir, Cəmilədə də o qabiliyyət var, ondan istifadə etməmək seçimini özü verir. Lakin Səidədə azad seçim xarici məhdudiyyətlər nəticəsində alınmır. İnsan inkişafı nəzəriyyəsinə əsasən, inkişaf yalnız hər üç amilin - müəyyən ehtiyatlara (məsələn, təhsilin verdiyi biliklərə) yiyələnmək üçün hüquq, imkanın və qabiliyyətin olduğu şəraitdə yer tuta bilər. Beləliklə, insan inkişafı üçün əlverişli şəraitin olub-olmamasını öyrənmək məqsədi ilə biz bu üç amilin təsiri altında formalaşan konkret həyat təcrübələrinə müraciət etməliyik.

Gətirdiyimiz misalda üç qız hüquq və imkanlardan istifadə etmək qabiliyyətlərinə görə bərabər şəraitdə deyil. Konkret ailə içərisində olan qərar vermə strukturu və qızlar üçün olan xüsusi qadağa Səidəni arzusuna çatmaqdan məhrum edir. Burada konkret sosial mühitdə (ailədə) müəyyən kateqoriyalı insanlara (qızlara) tətbiq olunan xüsusi qadağalar fərdin seçimini məhdudlaşdırır. Məhz bu qadağalar nəticəsində yaranan bərabərsizlik şəraitində müəyyən kateqoriyaya aid insanlar öz inkişafında ciddi əngəllərlə üzləşirlər.

Seçimlərimizi məhdudlaşdıran müxtəlif faktorlar arasında cəmiyyətdə və ailədə bərqərar olan bərabərsizlik mərkəzi yer tutur. Qeyri-bərabər hüquq və imkanlar şəraitində seçimlərin genişləndirilməsi yalnız konkret kateqoriyalara aid insanlar üçün mümkün olur. Beləliklə, bərabərsizlik nəticəsində "insan inkişafı" yalnız konkret kateqoriyalı insanların inkişafı ilə əvəzlənir.

Bəs qalanları necə? Təbii ki, cəmiyyət hər hansı bir kateqoriyanın qeyri-bərabər mövqeyinə bəraət qazandırırsa, bu kateqoriyaya aid insanların inkişafını məhdudlaşdıran formal və qeyri-formal qadağaları da adi bir hal olaraq qəbul

[2] Martha Nussbaum. Women and Human Development: The Capabilities Approach, Cambridge University Press, 2008, p. 5

edir. Beləliklə, bərabərsizlik əsasında qurulan sosial münasibətlər "inkişaf hər bir insanın hüququdur" prinsipinə zidd çıxır və bütöv cəmiyyətin insan inkişafı yolunda addımlaması üçün ciddi əngəllər törədir.

Bəzən insanlar mövcud bərabərsizlik qaydalarına qarşı çıxır, müqəddəratlarını öz əllərinə alaraq, qabiliyyətlərini artırırlar. Bu proses insan inkişafı nəzəriyyəsində *"səlahiyyətlərin genişləndirilməsi" ("empowerment")* adlanır və bərabərsizlik şəraitində inkişafa nail olmağın ilkin əsasını təşkil edir.

Bərabərsizlik bəzən ilk baxışdan müsbət təsir bağışlayan göstəricilər arxasında gizlənir. Təsəvvür edin ki, qızların yaşadığı şərti ölkədə Cəmilə və Lalədə olan təhsil almaq qabiliyyəti qızlar arasında cəmi 18%, oğlanlar arasında isə 75%-dir. Bu halda təhsil almaq hüququnun milli qanunvericilikdə təmin olunması, ölkədə çoxlu ali təhsil ocaqlarının fəaliyyət göstərməsi və hətta ildən ilə ali təhsil müəssisələrinə daxil olan tələbələrin artan sayı cəmiyyətdə bərqərar olan köklü bərabərsizlik şəraitini əks etdirmir. *Məhz buna görə də qlobal, regional, milli və yerli səviyyədə inkişafın gedişatına aid göstəricilərin cins üzrə bölgüsü zəruridir, çünki bu cür gender statistikası bir çox hallarda ümumi statistikanın aydın açıqlamadığı problemləri nümayış etdirir.*

Yaşadığımız mühitdə biz hər gün sosial və iqtisadi bərabərsizliyin müxtəlif formaları ilə rastlaşırıq. Biz həmçinin müxtəlif sahələrdə bərabərliyi təmin edən yazılı qanunlardan və yazılmamış qaydalardan bəhrələnirik. Bərabərsizliyin bəzi növləri artıq əksər cəmiyyətlərdə qanun səviyyəsində qadağan olunmuşdur və adi həyatda da insanlar tərəfindən rədd edilir. Lakin bərabərsizliyin digər formaları bəzi cəmiyyətlər, qruplar və ya ayrı-ayrı fərdlər tərəfindən rahat qəbul olunur. Məsələn, aşağıdakı iki fikri dostlarınıza təqdim edib, aldığınız reaksiyanı müşahidə edin:

1. "Kasıb insanlar varlılardan fərqli olaraq iradə və məntiq cəhətdən zəif olur"

2. "Qadınlar kişilərdən fərqli olaraq iradə və məntiq cəhətdən zəif olur"

Hər iki fikir müəyyən sosial klassifikasiya *(cins üzrə və ya maliyyə durumuna əsasən)* içərisində konkret kateqoriyaya *(qadınlar/kasıblar)* aid olan milyonlarla insan haqqında heç bir elmi əsası olmayan ümumiləşdirməni (stereotip) təqdim edir. Bu kimi stereotiplər əsasında verilən qərarlar milyonlarla insanın həyatına təsir göstərir, onları həyatın müxtəlif məqamlarında qeyri-bərabər şəraitə salır və beləliklə də insan inkişafını ciddi şəkildə məhdudlaşdırır. *Dostlarınız hansı fikri daha kəskin şəkildə rədd edir? Hansı stereotiplə daha asanlıqla razılaşır?* Cavablardan asılı olaraq sosial mühitinizin hansı bərabərsizlik formasına daha "dözümlü" olduğunu və beləliklə hansı kateqoriyaya aid olan insanlara qarşı daha ədalətsiz şəkildə davrandığını müəyyən edə bilərsiniz.

Müxtəlif ictimai münasibətlər arasında cəmiyyətdə kişi və qadınların fərqli rol və vəzifələrini müəyyənləşdirən münasibətlər sistemi mühüm yer tutur.

9.2 Gender nədir?

Bioloji fərqlər əsasında müəyyənləşdirilən *cinsdən* fərqli olaraq, *gender* (ona həmçinin *sosial cins* deyilir) kişi və qadınların ictimai münasibətlər çərçivəsində (məsələn, ailədə, məktəbdə, iş kollektivində) formalaşan rol və vəzifələrini əhatə edir. Bu rollar və vəzifələr konkret cəmiyyətdə mövcud olan *"kişi"* və *"qadın"* sosial kategoriyalarının mahiyyətini təşkil edir. Digər mühüm sosial klassifikasiyalarla bərabər (ictimai sinif, irq, etnik qrup və sair), gender insanların cəmiyyətdəki mövqeyini müəyyənləşdirən əsas amillərdən biridir.

"Cins" və "gender" arasında olan fərqi daha aydın göstərmək üçün iki misala müraciət edək. Uşaq doğmaq qadınlara aid olan reproduktiv bioloji funksiyası cinsin əlamətidir. Uşağın bəslənməsi və təlim-tərbiyəsi isə müxtəlif cəmiyyətlərin kişi və qadınlara (bəzən yalnız kişilərə və ya yalnız qadınlara) aid etdiyi sosial funksiya olaraq gender anlayışına aiddir və ailədə və cəmiyyətdə gender əsaslı əmək bölgüsünün bir hissəsidir. Bioloji cins əlamətləri və funksiyaları sosial cinsin funksiyaları ilə müqayisədə daha stabildir. Məsələn, uşaq doğmaq funksiyasını yalnız "qadın" cinsinə aid olan insanlar həyata keçirə bilər. Gender və ya sosial cinsin xüsusiyyətləri tarixi dövrdən, spesifik iqtisadi, mədəni, sosial və ekoloji şəraitdən asılı olaraq daim dəyişməkdədir.

Şimali Qafqaz xalqları arasında ənənəvi olaraq oğlanların tərbiyəsi ilə kişilər məşğul olurdu. "Atalıq" adlanan qədim adətin bir variantında oğlan uşaqları erkən yaşdan öz ailəsindən ayrılır, başqa ailəyə (bəzən başqa kəndə) verilirdi və orada kişi ailə üzvləri tərəfindən tərbiyə edilib öz valideynlərinin yanına yalnız yeniyetməlik çağında qayıdırdı.

Genderə aid təsəvvürlər təkcə zaman və məkanla dəyişmir. Eyni cəmiyyətdə insanların "kişilik" və "qadınlıq" xüsusiyyətləri haqqında təsəvvürləri konkret insanın yaşı, sosial mövqeyi, etnik qrupu, dini, ailə statusu və başqa faktorlardan asılı olaraq fərqlənir. Həyat təcrübənizə əsaslanaraq bu suallara cavab verin: *Kənd yerlərində və şəhərdə, imkanlı və yoxsul təbəqədə, müxtəlif mədəni mühitdə yaşayan tanışlarınız arasında ideal "kişilik" və "qadınlıq" xüsusiyyətləri haqqında təsəvvürlər eynidirmi? Fərqlər varsa, fikrinizcə, onlar nədən irəli gəlir?*

Digər sosial münasibətlər sistemləri kimi gender münasibətləri də müəyyən güc balansına, hakimiyyət bölgüsünə əsaslanır. Bu güc balansı konkret

cəmiyyətlərdə və cəmiyyət içərisində müxtəlif qruplarda kişi və qadınlara aid edilən qaydalar, qadağalar və gözləntilərdə öz əksini tapır. İctimai qaydalar və qadağalar kişi və qadınlar üçün fərqli davranış tərzlərini müəyyənləşdirir. Gözləntilər isə qadınların və kişilərin (qızların və oğlanların) həyatda nəyə nail olacağına dair ailə, icma, iş kollektivi və digər sosial mühitlərdə olan ümumi rəyləri əks etdirir.

Məsələn, evdən kənarda təhsil almaq qadağası 20-ci əsrin əvvəllərində Azərbaycan ailələrinin əksəriyyətində qızlara şamil edilirdi. O dövrdə yalnız bəzi ziyalı ailələrində qızların təhsilinə icazə verilirdi. Xalqımızın böyük maarifçiləri, məşhur yazıçıları və ictimai xadimləri M. F. Axundov, Y. V. Çəmənzəminli, Ə. Haqverdiyev, Ə. Ağayev, C. Məmmədquluzadə, H. Cavanşir, S. Axundzadə, Ş. Əfəndiyeva, N. Şıxlinskaya, H. Z. Tağıyev, M. Ə. Sabir, Ü. Hacıbəyov, C. Cabbarlı, Ö. F. Nemanzadə və başqaları Azərbaycanda qadın təhsilinin ictimai qadağalardan azad olması yolunda yorulmadan çalışmışlar.

Üstündən 30-40 il keçdi. Tarixi miqyasda kifayət qədər kiçik vaxt ərzində Sovet siyasəti (kollektivləşmə, təhsil islahatları, sənayeləşmə, şəhər əhalisinin artımı, ailə, qadın və nikah sahəsində qəbul edilən qanunlar və aparılan ictimai kampaniyalar) və İkinci Dünya Müharibəsi şəraitində cəmiyyətdə əmək bölgüsünün dəyişməsi gender münasibətlərinə ciddi dəyişikliklər gətirdi. Qadınlara tətbiq olunan bir sıra qadağalar bu dəyişikliklərin nəticəsində aradan qaldırıldı: qadınlar və qızlar təhsil almaq imkanını qazandı, oğlan və qızların ictimai sahədə mütəmadi olaraq ünsiyyətdə olması üçün şərait yarandı, qadınların müəllimlik sahəsində ixtisaslaşıb işləməsi kütləvi hal aldı. Artıq 2012-ci ildə Azərbaycanda təhsil müəssisələrində oxuyanların 47%-ni qızlar təşkil etmiş, təhsil sahəsində çalışanların mütləq əksəriyyəti (68%) qadınlar olmuşdu[3].

Müasir dövrdə qadınlara qarşı tətbiq olunan gender əsaslı ayrı-seçkilik, qadağalar və stereotiplər həm elmi sahədə, həm də ictimai müzakirələrdə və media səhifələrində geniş işıqlandırılır. Kişilərin rastlaşdığı gender əsaslı məhdudiyyətlər isə yalnız arabir müzakirə predmetinə çevrilir. Lakin bu demək deyil ki, müxtəlif cəmiyyətlərdə kişilər bu kimi problemlərlə üz-üzə gəlmir. Məsələn, ənənəvi patriarxal[4] dəyərlərin hökm sürdüyü şəraitdə iqtisadi böhran üzündən "ailənin əsas təminatçısı" funksiyasını yerinə yetirə bilməyən kişilər ciddi mənəvi-psixoloji və sosial təzyiqlərə məruz qala bilər. Buna bənzər mühitdə həyatını ev işlərinə və uşaqların tərbiyəsinə həsr etməyə qərar verən kişi də ətrafdakıların qınaq və ya istehza obyektinə cevrilir.

Gender münasibətlərində ictimai və özəl sahədə baş verən dəyişikliklər əksər

[3] Azərbaycanda qadınlar və kişilər 2012, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2012, səh. 63, 87

[4] Patriarxiya – kişilərin sosial təşkilatlanmada, siyasi idarəçilikdə, mənəvi dəyərlərin müəyyən edilməsində və mülkiyyətə nəzarətdə əsas hakim mövqeyə malik olduğu sosial sistemdir.

hallarda ağır və mürəkkəb prosesdir. Gender əsaslı güc balansının dəyişməsi ailədə, ictimai sahədə, iş yerlərində, hakimiyyət strukturlarında və bütövlüklə cəmiyyətdə mövcud olan mühüm iyerarxiyaları silkələyir. Özəl və ictimai sahədə qərar vermə proseslərinə yeni qüvvələr qoşulur, ənənəvi normalar pozulur, bu vaxta qədər qadağaları etirazsız qəbul edənlər öz haqqlarını tələb etməyə başlayır, mühüm ehtiyatlardan istifadə və nəzarət bölgüsü dəyişir. Müxtəlif sosial və iqtisadi şəraitdə gender bərabərsizliyi də fərqli formalarda özünü biruzə verir. Tariximizə nəzər salaq:

20-ci əsrin əvvəllərində ilk azərbaycanlı qadın-həkimlər kəskin ictimai qinaqla üzləşirdi. 1922-ci ildə Baki Dövlət Universitetinin Tibb Fakultəsinin məzunları arasında yalnız iki qız, Adilə xanım Şaxtaxtinskaya və Ceyran xanım Sultanova var idi. Qadınların bu sahəyə daxil olması cəmiyyətdə güclü etirazlara səbəb olmuşdu. Qadının evdən kənarda işləməsi, həkimlik sahəsində çalışaraq hər iki cinsdən olan insanlarla ünsiyyətdə olması o dövrün "qadın" sosial kateqoriyasına aid edilən qadağa və vəzifələrə zidd idi. Qadınların mütəxəssis olaraq evdən kənar əmək fəaliyyətinə görə pul qazanması və ictimai həyatda söz sahibi olması ailədə və cəmiyyətdə oturuşmuş hakimiyyət bölgüsünü pozurdu. İllər keçdi və hal-hazırda səhiyyə sektoru Azərbaycanda qadınların ən çox çalışdığı sahələrin birinə çevrildi. 2011-ci ilin sonuna səhiyyə və sosial xidmətlər sektorunda qadınlar 77,6%, kişilər isə 22,4% təşkil edirdi[5]*. 2005-ci ildə Azərbaycan Milli İnsan İnkişafı Hesabatı üçün keçirilmiş sorğu nəticələrinə əsasən respondentlərin əksəriyyəti həkimliyi qadınlar üçün ən münasib ixtisaslardan biri sayır*[6]*. Lakin ümumi səhiyyə sistemində azlıq təşkil edən kişi işçilər rəhbər vəzifələrdə çoxluq təşkil edir*[7]*.*

Eyni peşə sahəsində, qurum, təşkilat və ya da şirkətdə bir gender kateqoriyasına aid insanların yuxarı, orta və ya aşağı vəzifələrdə cəmləşməsinə **şaquli gender seqreqasiyası** deyilir. Şaquli seqreqasiya cəmiyyətdə dərin kök salmış gender bərabərsizliyinin əlamətidir. Ümumi saya görə səhiyyə sektorunda azlıq təşkil edən kişi işçilərin rəhbərlik vəzifələrində cəmləşməsi bir sıra faktorlar nəticəsində əmələ gələ bilər: kadr siyasətində yazılmamış patriarxal qaydalar və stereotiplərin təsiri, iş rejimi və vəzifəyə aid tələblərin qadınların kişilərdən fərqli ailə vəzifələrini nəzərə almaması, qadınların öz profesional səviyyəsini artırmaq üçün olan imkanlardan istifadə edərkən məhdudiyyətlərlə üzləşməsi və s.

[5] Azərbaycanda qadınlar və kişilər 2012, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2012

[6] Gender Attitudes in Azerbaijan: trends and challenges, National Human Development Report, 2007

[7] Gender Attitudes in Azerbaijan: trends and challenges, National Human Development Report, 2007, səh. 51

9.3 Gender bərabərsizliyi yalnız qadın problemi deyil

Qeyri-bərabər gender münasibətləri çərçivəsində bir kateqoriya əlverişsiz, asılı, hakimiyyətsiz, o birisi isə əlverişli, hakimiyyətə sahib, idarəedici mövqelərdə yerləşir. Nəticədə insanın gender mənsubiyyəti onun inkişaf imkanlarına bilavasitə təsir edir. Hal-hazırda qlobal miqyasda və eləcə də dünyanın ayrı-ayrı bölgələrində gender bərabərsizliyinin nəticəsində milyonlarla insanın inkişafı məhdudlaşdırılır.

- Dünyada 1.3 milyard yoxsul əhalinin 70%-ni qadınlar təşkil edir.
- BMT-nin hesablamalarına görə, dünyada qidanın 50%-ni qadınlar istehsal edir, lakin onlar ümumi gəlirin yalnız 10%-ni alır və cəmi 1% torpaqların yiyəsidir.
- Dünya parlamentlərində qadın millət vəkilləri yalnız 19.1% təşkil edir.
- Dünyada həddi-büluğa çatmış əhalinin 774 milyonu savadsızdır. Onların 2/3-ni qadınlar təşkil edir (bu rəqəm son 20 il ərzində dəyişməz qalır).
- Hər il dünyada 18 yaşına çatmamış 60 milyon qız erkən nikaha məcbur edilir.
- 15-44 yaşlı qadınlar arasında zorakılıq nəticəsində ölən və zərər çəkənlərin sayı xərçəng xəstəliyi, malyariya, avtomobil qəzaları və müharibə qurbanlarının sayından artıqdır. Qadınlara qarşı zorakılıq aktlarının əksəriyyəti həyat yoldaşı (və ya intim partnyor) tərəfindən törədilir[8].

Gender bərabərsizliyinin əsas hədəfi qızlar və qadınlar olsa da, bu sosial bəladan zərər çəkən təkçə qadınlar deyil. Hərbi münaqişələr zamanı əsasən yeniyetmə oğlanları hədəf götürən ölümcül əməliyyatlar tarixin faciəvi səhifələrinə həkk olunub. Bu qəddar cinayətlərin məhz oğlanlara qarşı törədilməsinin əsasında konkret cəmiyyətlərdə oğlanlara gələcək döyüşçü, ailə və ya tayfanın əsas təminatçısı vəzifəsini təyin edən gender vəzifələri durur.

Statistik məlumatlar göstərir ki, gender bərabərsizliyi bütöv cəmiyyətin və ayrı-ayrı fərdlərin inkişafına saysız-hesabsız zərbələr vurur. Yoxsulluğun, xəstəliklərin, ailədaxili zorakılığın, savadsızlığın öhdəsindən gəlmək üçün bəşəriyyət kişi və qadın bərabərliyinə nail olmalıdır. Dünyada hər üç qadından biri zorakılığa məruz qalır. Qadınlara qarşı zorakılıq gender bərabərsizliyinin hökm sürdüyü mühitdə cəzasız cinayət kimi qalmaqdadır. Ailədə, icmada, məktəbdə və ya iş yerində fiziki, psixoloji və ya seksual zorakılığa məruz qalan, hərdən isə öz evlərində dustaq kimi saxlanılan insanlar ən əsas hüquqlar və imkanlardan istifadə etməyə belə macal tapmırlar. *Məsələn, Əfqanistanda azyaşlı*

[8] Mənbə: UNWomen, Gender Issues (http://www.unifem.org/gender_issues); UNICEF, 'Women and Children: The Double Dividend of Gender Equality', 2007; UNDP in Action: Women and Girls in Crisis. Key statistics; UN Entity for Gender Equality and the Empowerment of Women.

qızların fiziki və seksual zorakılığa məruz qalması halları üzündən valideynlər qız uşaqlarının təhlükəsizliyini təmin etmək məqsədi ilə onları çox vaxt məktəbə buraxmaqdan vaz keçir. Ölkədə ümumi orta təhsili bitirmişlərin faizi qadınlar arasında 5.6%, kişilər arasında isə 34 faizdir.

İnsan inkişafı nəzəriyyəsinin ərsəyə gəlməsində aparıcı rol oynamış Nobel mükafatı laureatı Amartya Sen öz araşdırmalarında gender bərabərsizliyinin cəmiyyətə gətirdiyi ziyanı dəfələrlə qeyd etmişdir. Məsələn, Cənubi Asiyada apardığı tədqiqatlara əsasən A. Sen bir çox bölgələrdə qız uşaqlarının oğlanlarla müqayisədə daha az qida qəbul etdiyini göstərmişdir. Bu hal ailələrin ənənəvi olaraq oğlan uşaqlarına daha böyük dəyər verməsi ilə əlaqədardır. Uşaqlıqda ailədə zəruri qidalanmadan məhrum edilmiş qadınların böyük hissəsi həyat boyu səhhətində müxtəlif problemlərlə rastlaşır və çəkisi qəbul olunmuş tibbi standartlardan aşağı olan körpələr dünyaya gətirirlər. Çəkisi normadan aşağı olan uşaqlar arasında illər sonra ürək xəstəliklərindən zərər çəkənlərin yüksək sayı qadınlara tətbiq olunan sosial məhdudiyyətlərin bioloji reproduktiv funksiya vasitəsi ilə gələcək nəsillərə necə təsir göstərdiyini nümayiş edir[9].

"Gender bərabərsizliyi təkcə qızların və qadınların maraqlarına ziyan vurmur, o həmçinin oğlanlar və kişilərə mənfi təsir göstərir. Bu təsir bioloji əlaqələr (uşaqların zəif qidalanması, böyüklərin kardiovaskulyar xəstəliklərə düçar olması) və sosial əlaqələr (bərabərsizliyin siyasi, ictimai və iqtisadi sahələrə vurduğu ziyan) vasitəsilə həyata keçir."[10]

Sen həmçinin gender bərabərsizliyinin siyasi, iqtisadi və mədəni kontekstdən asılı olaraq müxtəlif formalar aldığını qeyd edir. *"Yaponiyadan Mərakeşə, Özbəkistandan Amerika Birləşmiş Ştatlarına qədər gender bərabərsizliyi dünyanın əksər bölgələrində mövcuddur. Lakin qadınlarla kişilər arasında olan bərabərsizlik bir çox fərqlı formalarda özünü büruzə verə bilər. Əslində gender bərabərsizliyi vahid bir fenomen deyil, bir-biri ilə əlaqədə olan problemlər toplusudur."*[11]

9.4 Gender bərabərliyi

İnsanların inkişafı onların cins və ya gender mənsubiyyətinə əsasən məhdudlaşdırılmamalıdır. ***Gender bərabərliyi*** *qadınların və kişilərin, oğlanların və qızların bərabər hüquqları, vəzifələri və imkanları deməkdir.*[12]

[9] Amartya Sen, Many faces of gender inequality, http://www.flonnet.com/fl1822/18220040.htm
[10] Amartya Sen, Many faces of gender inequality
[11] Amartya Sen, Many faces of gender inequality
[12] Mənbə: Office of the Special Adviser on Gender Issues and Advancement of Women (OSAGI) United Nations and Gender Mainstreaming Learning & Information Packs prepared by the United Nations Development Programme-UNDP

Bərabərlik kişiləri və qadınları eyniləşdirmir, əksinə onların fərqli ehtiyaclarını, prioritetlərini və maraqlarını nəzərə almağa tələb edir.

Son yüz il ərzində dünya dövlətləri gender problemlərinin çözümü istiqamətində böyük addımlar atmışdır. Milyonlarla qız və oğlan, kişilər və qadınlar bərabər şəkildə qida və su ehtiyatlarından istifadə etmək, təhsil almaq, səhiyyə xidmətlərindən istifadə etmək, ictimai və siyasi fəaliyyətlə məşğul olmaq və iqtisadi həyatda iştirak etmək imkanı əldə etmişdir. Qeyri-hökumət təşkilatları və ictimai fəallar gender əsaslı ayrı-seçkiliyə qarşı yerli və qlobal səviyyədə mübarizə aparmış, kişi və qadın bərabərliyi məsələsinin beynəlxalq forumların və ayrı-ayrı dövlətlərin gündəminə daxil edilməsinə nail olmuşlar.

Birləşmiş Millətlər Təşkilatının fəaliyyəti çərçivəsində dünya dövlətləri gender bərabərliyini və qadın hüquqlarını təmin edən bəynəlxalq konvensiyalara qoşulmuşlar. Bu sırada "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsı haqqında" Konvensiya (1995-ci il), IV Ümumdünya Qadınlar Konfransında qəbul edilmiş Pekin Bəyannaməsi və Pekin Fəaliyyət Platforması (1995-ci il) və Minilliyin Bəyannaməsi (2000-ci il) xüsusi əhəmiyyət kəsb edir. BMT-nin dəstəyi ilə dünyanın bütün bölgələrində dövlətlər öz milli qanunvericiliyində münasib dəyişikliklər etmiş və gender sahəsində iri miqyaslı proqramlar həyata keçirmişlər. Lakin yuxarıda təqdim etdiyimiz statistik məlumatlar göstərir ki, bütün bu uğurlara baxmayaraq XXI əsrin əvvəlində gender bərabərsizliyi bəşəriyyət qarşısında duran ən ciddi problemlərdən biri olaraq qalmaqdadır.

2000-ci ildə "gender bərabərliyinə nail olmaq və qadınların səlahiyyətlərini genişləndirmək" Minilliyin İnkişaf Məqsədlərindən (MİM) biri olaraq müəyyən edilmişdir. Eyni zamanda kişi və qadınların ictimai və iqtisadi mövqelərindəki uyğunsuzluqları aradan qaldırmadan minilliyin digər inkişaf məqsədlərinə nail olmaq qeyri-mümkündür. Yeni minillikdə qlobal inkişafın istiqamətlərini müəyyənləşdirən 8 MİM-dən daha ikisi "uşaq ölümü hallarının azaldılması" (MİM 4) və "ana sağlamlığının yaxşılaşdırılması" (MİM 5) qadınların ictimai və iqtisadi durumu ilə bilavasitə bağlıdır. Yoxsul və savadsız əhalinin tərkibində qadınların əksəriyyət təşkil etdiyini nəzərə alsaq, digər iki məqsəd ilə ("ifrat yoxsulluğun və aclığın aradan qaldırılması" və "ümumi ibtidai təhsilə nail olunması" üzrə MİM-lər) gender bərabərsizliyi arasında olan əlaqə aydın görünür.

Gender bərabərsziliyi həm fərdi, həm institusional səviyyədə özünü büruzə verə bilər. İnsan inkişafına yönəlmiş siyasət aşağıdakı səviyyələrdə gender bərabərsizliyinin aradan qaldırılmasına çalışır:

- Qanunvericilik
- Sosial təsisatlar
- İctimai münasibətlər
- Ailədaxili münasibətlər

Gündəlik həyatımızda gender əsaslı qaydalar, qadağalar və gözləntiləri

ayrı-ayrı insanların hərəkətlərində bəzən asanlıqla müşahidə etmək olar. Azərbaycanda azyaşlı qızların valideynlər tərəfindən erkən nikaha məcbur edilməsi gender əsaslı zorakılığın gözə çarpan növüdür və milli qanunvericilik tərəfindən qadağan edilir. Lakin bəzən gender bərabərsizliyi və onun mənfi təzahürləri insanlar tərəfindən adi hal kimi qəbul olunur. Cənubi Asiyada qızların qidasını məhdudlaşdıran ana və atalar çox vaxt övladlarının anemiya (qanazlığı) xəstəliyindən zərər çəkdiyini qız və qadınların təbiətdən zəif olması ilə izah edir. *Beləliklə, gender əsaslı qaydalar nəticəsində əmələ gələn xəstəlik qadınlara aid olan təbii bioloji xüsusiyyət olaraq qəbul olunur.* Müəyyən sosial kateqoriya (qızlar) insan inkişafı üçün zəruri olan sağlamlıqdan məhrum edilir.

Gender münasibətlərinə aid normalar cəmiyyətdə fəaliyyət göstərən əsas sosial təsisatlar (hakimiyyət, ailə, məktəb, dil, qanunverici, siyasi və iqtisadi sistemlər) tərəfindən mütəmadi olaraq istehsal edilir. Gəlin bu prosesi daha ətraflı araşdıraq. Məsələn, təsəvvür edək ki, şərti ölkənin milli qanunvericiliyinə əsasən hər bir vətəndaşın seçmək və seçilmək hüququ vardır. Lakin seçki prosesini tənzimləyən prosedurlar qadınlardan seçkidə iştirak etmək üçün ailə başçısının razılığını almağı tələb edir. Məktəb isə təhsil prosesində yeni nəsillərə yeritdiyi gender stereotipləri vasitəsilə bu bərabərsizliyə ideoloji dəstək verir.

Beləliklə, gender əsaslı ayrı-seçkilik normallaşaraq gözdən itir, bürokratik prosedurlar və "təbii" kimi qəbul olunan sosial normalar arxasında gizlənir. Cəmiyyətdə insan inkişafını təmin edə biləcək şəraitin yaradılması üçün gender bərabərsizliyini adiləşdirən, normallaşdıran və öz fəaliyyətində mütəmadi olaraq istehsal edən sosial təsisatlar daxildən dəyişilməlidir.

9.5 Qlobal miqyasda inkişaf siyasəti və gender

Gender bərabərliyinə aid məsələlər ilk olaraq inkişaf gündəminə qadın problemləri timsalında daxil olmuşdur. İnkişafı modernizasiya və iqtisadi artımla bağlayan yanaşmalar qadınların iqtisadiyyatda çox cüzi rol oynadığını, inkişaf prosesinin kişi və qadınlara eyni tərzdə təsir etdiyini, ümumi iqtisadi artımın kişilərin yüksələn gəlirləri vasitəsi ilə ailələrə və o cümlədən qadınlara da müsbət təsir edəcəyini aksiom olaraq qəbul etmişdir. Bu yanaşmalara arxalanan siyasətlər inkişaf edən ölkələrdə qadınları humanitar yardıma ehtiyacı olan, cəmiyyətdə əsasən bioloji reproduktiv funksiyanı yerinə yetirən, asılı bir qrup olaraq tanıyırdı. Bu qrup üçün nəzərdə tutulan proqramlar qida məhsulları, gigiyena vasitələri və ailə planlaşdırması vasitələrinin paylanmasına xüsusi diqqət yetirirdi.

XX əsrin 70-ci illərindən başlayaraq sürətlə artan qadın və gender tədqiqatları elm sahəsi və beynəlxalq qadın hərəkatı inkişaf ətrafında gedən müzakirələrin fəal işitirakçısına çevrilir, bəzi oturuşmuş iqtisadi yanaşmaları sual altına qo-

yur, onların yoxsulluq şəraitində yaşayan milyonlarla kişi və qadınların həyat təcrübəsindən nə dərəcədə uzaq olduğunu göstərmişdir. BMT-nin birinci İnkişaf Onilliyinin (1961-1970) bəyannaməsində inkişafda qadınların iştirakı məsələsi mərkəzi yer tutmasa da, 1962-ci ildə BMT-nin Baş Assambleyası Qadın Statusu üzrə Komissiyaya qadınların inkişaf prosesində rolunu araşdıran hesabatın hazırlanmasına dair tapşırıq verir. 1970-ci ildə isə Baş Assambleya ikinci İnkişaf Onilliyin strategiyasına artıq "inkişafla bağlı bütün addımlarda qadınların tam iştirakını" məqsəd olaraq daxil etmişdi. BMT-nin Mexiko (1975-ci il), Kopenhagen (1980-ci il), Nayrobi (1985-ci il) və Pekində (1995-ci il) keçirdiyi Ümumdünya Qadın Konfransları tədqiqatçılar, ictimai fəallar, qeyri-hökumət təşkilatları və beynəlxaq qurumlar üçün mühüm müzakirələr arenasına çevrilmişdi.

İqtisadi artımla hər bir insanın inkişafı üçün daha geniş imkanlar yaranırsa, nə üçün bəzi ölkələrdə bu artım gender bərabərsizliyinin azalmasına, digərlərində isə kəskinləşməsinə gətirib çıxarır? İqtisadi artım asılı vəziyyətdə olan əhali qruplarının istismarı hesabına əmələ gəlirsə, bu, insan inkişafına nə dərəcədə xidmət edə bilər? Gender əsaslı əmək bölgüsü yoxsulların arasında qadınların əksəriyyət təşkil etməsinə necə təsir göstərir?

İnkişafa dair nəzəri yanaşmaların köklü surətdə dəyişməsi məhz bu sərt suallar və kəskin muzakirələr mühitində başlamışdır. Ester Bouzrupun 1970-ci ildə çapdan çıxmış məhşur "İqtisadi İnkişafda Qadınların Rolu" əsəri qadın fermerlərinin istehsal etdiyi məhsulun bir sıra Afrika ölkələrinin iqtisadiyyatında mühüm rol oynadığını göstərmişdir. Bouzrup öz araşdırmasında göstərdi ki, bir çox ölkələrdə adətən inkişaf əlaməti hesab edilən kənd təsərrufatının mexanizasiyası qadın işçi qüvvəsinin gəlir gətirən iqtisadi fəaliyyətdən kənarlaşdırılması və qadınların başçılıq etdiyi ailələrin yoxsulluğa düçar olması ilə müşayiət olunub.

Qadınların formal və qeyri-formal iqtisadiyyatda fəal iştirakını araşdıran onlarla əsərlər zəif, passiv, iqtisadi cəhətdən qeyri-məhsuldar qadın stereotipini məhv edərək, bu stereotiplərə arxalanan yanaşmaların iqtisadi cəhətdən fəal əhali qruplarını nəzərə almadıqlarını nümayış etdirdi. Eyni zamanda, bu tədqiqatlar inkişafın təkcə ümumi iqtisadi göstəricilər (xüsusi ilə Ümumi Daxili Məhsulun) vasitəsi ilə ölçülməsinin nöqsanlarını üzə çıxardı. Kişi və qadınların təhsil və iş imkanlarını, səhiyyə və sosial xidmətlərdən istifadə səviyyəsini araşdıran tədqiqatlar göstərdi ki, iqtisadi yüksəliş bu sahələrdə mövcud olan gender əsaslı məhdudiyyətləri aradan qaldırmır və hətta bəzi hallarda onları daha da kəskinləşdirərək yoxsulluğun və savadsızlığın artması ilə müşayiət oluna bilər.

80-ci illərdə ev təsərrüfatlarına dair məlumatların gender təhlili yeni nöqsanları üzə çıxardı. Ənənəvi olaraq iqtisadçılar ev təsərrüfatının gəlirlərini hesablayarkən bu gəlirdən bütün ailə üzvlərinin bəhrələndiyini hesab edirdilər.

Lakin yeni tədqiqatlar (məsələn, Cənubi Asiyanın aqrar bölgələrində) ailə daxilində qidalanmanın sərt gender iyerarxiyası üzrə aparıldığını göstərdi. Bu isə qız və qadınların mütəmadi olaraq yetərincə qidalanmamasına və nəticədə bir sıra tipik xəstəliklərdən zərər çəkməsinə gətirib çıxarırdı.

Bu nöqsanların aradan qaldırılması üçün qlobal inkişaf siyasətində yeni, gender məsələlərinə daha həssas olan yanaşmaların tətbiqinə ehtiyac var idi. 70-ci illərin müzakirələrindən yaranan bu yeni yanaşmalar üç əsas mərhələdən keçmişdir.

9.5.1 İnkişafda qadın (Women in Development/WID).

Bu mərhələdə uğurlu inkişaf siyasətinin kişilərlə bərabər qadınları da əhatə etməsi diqqət mərkəzində idi. Qadınların bu proseslərdə iştirakı iqtisadi effektivlik baxımından qiymətləndirilirdi. Iqtisadi artıma arxalanan inkişaf üçün əlavə insan ehtiyatları zəruri idi və kasıb bölgələrdə açılan yeni sənaye müəssisələrinə yüzlərlə qız və qadınların cəlb olunması bir çoxları tərəfindən inkişafın uğuru olaraq qəbul edilirdi. Qadınların muzdlu işlərə yiyələnməsi WID yanaşmasına görə, ona iqtisadi müstəqillik verir və gələcəkdə təhsil, səhiyyə və digər sahələrdə qadınların qabiliyyətləri və imkanlarını genişləndirirdi. Sanki imkanlar artıq mövcud idi qadınlar sadəcə bunları əldə etməyə hazırlıqlı olmalı idi.

Beləliklə, WID problemi müəyyən gender kateqoriyasına aid insanların (qız və qadınların) çatışmayan xüsusiyyətlərində (bilik, bacarıq, müstəqillik) görürdü. Problemin həlli qadınları dəyişdirmək idi. Bu istiqamətdə atılacaq mühüm addımlardan biri milli hökumət aparatlarında xüsusi ilə qadın məsələləri ilə məşğul olacaq qurumların yaradılması idi. WID yanaşmasına əsasən, zəruri ehtiyatlara (məsələn, bilik və bacarıqlara, maliyyə kreditlərinə) yiyələnmək imkanını qazanan qadınlar ictimai və iqtisadi inkişafın fəal iştirakçısına cevriləcəkdi.

Problemin bu cür qoyuluşu müxtəlif sosial təbəqələrdən olan qadınların həyat tərzi və imkanlarında olan dərin fərqləri nəzərə almırdı. Bu yanaşma həmçinin iqtisadi inkişafın avtomatik olaraq bərabərsizliyi aradan qaldıracağına hələ də inanırdı. WID cəmiyyətdə gender bərabərsizliyini mütəmadi olaraq istehsal edən sosial strukturları dəyişdirməyə cəhd göstərmirdi.

Məsələn, WID çərçivəsində bəzi ölkələrdə aqrar sektorda çalışan qadınlara kiçik kreditlər paylayan proqramlar ciddi əngəllərlə rastlaşırdı: qadınlar kreditləri götürüb onlara sahib çıxa bilmirdi. Ailə və icma daxili gender iyerarxiyasında maliyyə ehtiyatlarına nəzarət kişilərə aid idi. Beləliklə bu bölgələrdə qadın sahibkarlarına dəstək olaraq nəzərdə tutulmuş proqramlar real nəticə vermirdi.

9.5.2 Qadın və inkişaf (Women and Development/WAD).

Növbəti mərhələdə formalaşan inkişaf siyasəti öncəki yanaşmanın çatışmazlıqlarını nəzərə almağa çalışırdı. "Qadınları dəyişdirməkdənsə, inkişafın üsul və istiqamətlərini dəyişdirmək lazımdır" fikri getdikcə populyarlaşırdı. WAD çərçivəsində qadınların modernizasiya və sənayeləşmə prosesində iştirakı yenidən araşdırıldı. Yoxsul ölkələrdə qadınların yerli və beynəlxalq kapitalın istismar qurbanlarına cevrilməsi WAD siyasətinin əsas mövzularından biri idi. Tədqiqatlar, qeyri-hökümət təşkilatlarının hesabatları, media araşdırmaları göstərdi ki, bəzi ölkələrdə işçi qadınların imkanlar dairəsi nəinki genişlənmir, əksinə, daha da kiçilir. Qlobal geyim sənayesinin yoxsul ölkələrin hüquqsuz ucuz əmək qüvvəsinin istismarı hesabına fəaliyyət göstərməsi WAD-ın tənqid hədəfinə gəlmişdir.

Bu yanaşma dünyanın müxtəlif bölgələrində gender bərabərsizliyinin inkişaf üçün fərqli problemlər yaratdığını göstərdi. İnkişaf etmiş Qərb ölkələrinin təcrübəsinə əsaslanan qənaətlər qadınların formal əmək işçi qüvvəsinə qoşulmasını inkişafa və gender bərabərliyinə doğru atılan uğurlu addım olaraq qiymətləndirirdi. Lakin dünyanın digər bölgələrində toplanmış məlumatlar çox fərqli mənzərəni təqdim edirdi. Patriarxal ailə dairəsindən çıxıb əmək kollektivinə daxil olan qız və qadınlar yeni patriarxal münasibətlər sisteminə düşürdü. Bu dəfə qadağalar, məhdudiyyətlər və bəzən fiziki və seksual zorakılıq iş rəhbərləri tərəfindən tətbiq edilirdi. Çox cüzi əmək haqqı alan, təhsil və səhiyyə xidmətlərindən məhrum edilmiş bu yeni fəhlələr üçün yoxsulluq səviyyəsindən yuxarı qalxmaq şansları həddindən artıq zəif idi.

WAD qadınlar üçün kişilərlə bərabər iş şəraitinin yaradılması, qadınların gəlir gətirən fəaliyyətlərə cəlb olunmasını dəstəkləyirdi. Bu mərhələdə inkişaf siyasətinin hədəfi olaraq ictimai sahədə gender bərabərsizliyi seçilmişdi. Özəl sahədə mövcud olan ayrı-seçkilik və zorakılıq, həmçinin qadınların ailə və icma daxilində yerinə yetirdiyi reproduktiv fəaliyyət (uşaqların tərbiyəsi və müalicəsi, xəstə, qoca və şikəst ailə üzvlərinə qayğı göstərilməsi, icmalarda vəzifələrin qadınlar tərəfindən pulsuz icra edilməsi və s.) WAD-ın diqqət mərkəzindən kənarda qalmışdı.

9.5.3 Gender və inkişaf (Gender and Development/GAD).

WID və WAD çərçivəsində əldə edilən uğurlara baxmayaraq 90-ci illərdə gender və inkişaf sahəsində çalışan qurumlar və mütəxəssilər yeni mürəkkəb suallarla üz-üzə qaldı. Artıq məlum idi ki, gender bərabərsizliyi inkişafın yolunda təkcə keçmişdən qalmış bir əngəl deyil. İnkişaf prosesinin özü gender bərabərsizliyini yeni formalarda ərsəyə gətirirdi.

Qadınların inkişaf prosesinə inteqrasiyası bəzi bölgələrdə istismar, gender əsaslı tabelik və cinsi ayrı-seçkilik əsasında qurulmuş yeni münasibətlər sistemlərinin əmələ gəlməsi ilə nəticələnirdi. Qlobal ticarətin və kommunikasiyaların inkişafı insan alveri və seksual istismarın, qeyri-leqal miqrasiya və qeyri-formal iqtisadiyyatın artımı ilə müşayiət olunurdu. Bu artımın mühüm mənbəyini yoxsul ölkələrin qadın və uşaqlarının seksual və fiziki istismarı təşkil edir.

GAD yanaşması ümumiləşdirilmiş "qadın" konsepsiyasını rədd edir və dünyanın müxtəlif ölkələrində qadınların və kişilərin fərqli təcrübələrinə əsaslanmağa üstünlük verir. Bu yanaşma həmçinin öncəki inkişaf siyasətinin sırf qadınların produktiv (yəni gəlir gətirən) fəaliyyətinə diqqət yetirdiyini tənqid etmişdir. GAD qadınların gəlir gətirməyən, ancaq cəmiyyətin varlığı üçün zəruri olan reproduktiv fəaliyyətinin (uşaqların tərbiyəsi, ev şəraitində qida istehsalı, xəstə və şikəst ailə üzvlərinə qayğı) iqtisadi və ictimai əhəmiyyətini diqqət mərkəzinə çəkdi. Bərabərsizlik probleminin həllində GAD diqqəti qadından daha çox gender münasibətlərinə yönəldir. Qadını dəyişmək əvəzinə sistemi dəyişməyə üstünlük verir. Bu yanaşmanı daha aydın anlamaq üçün aşağıdakı kiçik hekayəyə müraciət edək:

Yadplanetlilərlə görüş

Günlərin birində nəhəng kosmik gəmi planetimizə enir. Gəmini qarşılayan insanlar inanılmaz həyəcan və sevinc hissləri keçirir. Hamı gəmidən kimin çıxacağını səbrsizliklə gözləyir... lakin gəminin parıltılı metal divarlarında nə qapı, nə də pəncərə var. Qərar verilir ki, gəmidə olanlara yardım olaraq divarında bir qapı kəsilsin. Standart dairəvi qapı quraşdırılır, açılır və gəmidən nəhayət ki, bir neçə yumru yaşıl yadplanetli çıxır. Onlar insanlarla gözəl ünsiyyət yaradır, öz planetləri haqqında çox maraqlı və faydalı məlumatlar verir və bir neçə saata geri dönməyə qərar verir. Vidalaşanda insanlardan biri: "bəs qalaktikanızın başqa planetlərində həyat varmı?" deyə soruşur. Qonaqlardan biri: "Təbii ki, bizdən başqa qalaktikamızın 105 planetində yüksək səviyyədə inkişaf etmiş müxtəlif sivilizasiyalar var", deyir, "əslində biz bu səyahəti bir yerdə edirik, onların nümayəndələri gəmidə gözləyir". Insanlar qulaqlarına inanmır: "Bəs onlar nə üçün bizimlə kontakta girmədi?" deyə soruşurlar. "Onlar kvadrat, romb və üçbucaq formasındadır, qapıdan keçə bilmədilər", deyə yaşıl yadplanetli cavab verir.

İnkişaf siyasətini həyata keçirən müxtəlif qurumlar (nazirliklər, beynəlxalq təşkilatlar, təhsil ocaqları, səhiyyə və sosial xidmətləri, qeyri-hökumət və dövlət

müəssisələri, banklar, maliyyə-kredit, biznes və ticarət müəssisələri və sair) öz fəaliyyətlərini müəyyən qaydalar əsasında qurur. Əhaliyə xidmət göstərərkən öz fəaliyyətində insanların fərqli imkanları, maraqları və ehtiyaclarını nəzərə almayan qurumlar, standart dairəvi qapısı olan gəmiyə bənzəyir. Onlar yalnız bir tipli müştəriyə xidmət göstərə bilir və beləliklə də tətbiq etdiyi dar standartlara uyğun gəlməyənlər üçün qeyri-bərabər, ədalətsiz şərait yaradır. Nəticədə inkişaf prosesi insanların seçimlərini genişləndirmək əvəzinə qarşılarına əlavə məhdudiyyətlər qoyur. Eyni zamanda, cəmiyyət inkişafdan kənarda qalmış insanların bilikləri, istedad və bacarıqlarından bəhrələnə bilmir və beləcə ümumi tərəqqi prosesinə ziyan vurulur.

GAD yanaşmasına görə, dünyanın bir çox bölgələrində ailə və icma çərçivəsində hökm sürən gender bərabərsizliyi ailədən kənarda olan və inkişaf siyasətini milli və qlobal səviyyədə həyata keçirən qurumlarda davam edir. Əksər ölkələrdə inkişafdan kənarda qalan və ya zərər çəkən əhali qrupları (bunların arasında qadınlar əksəriyyət təşkil edir) məhz cəmiyyətdə fəaliyyət göstərən əsas qurumların ədalətsiz qaydaları üzündən inkişafda fəal iştirak etmək imkanından məhrum olur. Bu şəraitdə insan inkişafına nail olmaq üçün institusional (yəni təsisatlar və qurumların fəaliyyət qaydalarına aid olan) islahatların keçirilməsinə ehtiyac var. Eyni zamanda, əlverişsiz mövqedə olan qrupların inkişaf siyasətinin müəyyənləşdirilməsində və icrasında fəal iştirakı təmin olunmalıdır.

9.6 Gender yönümlü həssas yanaşma

GAD yanaşması gender münasibətlərini dəyişən institusional dəyişikliklər sahəsində "gender meynstriminq" strategiyasını irəli sürmüşdür. ***Gender yönümlü həssas yanaşmanın bütün sahələrə tətbiq edilməsi*** *(gender mainstreaming) – istənilən sahədə və istənilən səviyyədə (qanunvericilik, siyasət və proqramlar da daxil olmaqla) planlaşdırılan fəaliyyətin kişi və qadınlara olan təsirinin qiymətləndirilməsi prosesidir. Bu strategiya, siyasi, iqtisadi və sosial sahələrdə həyata keçirilən siyasət və proqramların işlənib hazırlanması, icrası, monitorinqi və qiymətləndirilməsində tətbiq olunur və qadın və kişilərin maraq və təcrübələrində ola biləcək fərqləri hər zaman nəzərə alır. "Gender meynstriminq" – strategiya, gender bərabərliyi isə məqsəddir*[13].

"Gender meynstriminq" strategiyası 1995-ci ildə Pekində keçirilmiş BMT-nin dördüncü Dünya Qadın Konfransı tərəfindən dəstəklənmişdir və dünyanın bir çox ölkələrində (o cümlədən Azərbaycanda) dövlət siyasəti səviyyəsində

[13] Agreed Conclusions on Gender Mainstreaming. Geneva: United Nations Economic and Social Council, 1997, http://www.un.org/documents/ecosoc/docs/1997/e1997-66.htm

tətbiq olunmaqdadır. Dördüncü Dünya Qadın Konfransından sonrakı dövrdə bu strategiyanın tətbiq edilməsi bəzən uğurla, bəzən isə böyük çətinliklərlə həyata keçmişdir. Məsələn, son 15 il ərzində "gender meynstriminqin" tərkib hissəsi olan gender statistikası dünyada uğurla inkişaf etmişdir. ***Gender statistikası*** - *cinslər üzrə toplanaraq təhlil edilmiş və cəmiyyətdə gender məsələlərini əks etdirən statistik məlumatlardır.*

Gender yönümlü həssas yanaşmanın tətbiqində üzə çıxan problemlər halhazırda BMT konfranslarında və digər beynəlxalq forumlarda müzakirə edilir. Məsələn, bu strateqiyanı tənqid edənlərin bir hissəsi qeyd edir ki, gender yönümlü həssas yanaşma əsas mübarizəni, yəni gender əsaslı istismar və ayrı-seçkiliklə mübarizəni, texniki bürokratik prosedurların müxtəlif əhali qruplarının ehtiyaclarına daha dəqiq cavab verməsi ilə əvəz edir. Digər irad ondan ibarətdir ki, gender yönümlü həssas yanaşmanın davamlı tətbiqi yalnız səmərəli şəkildə idarə edilən təsisatlarda mümkündür. Səmərəli idarəçilik prinsipləri, məsələn, siyasətlərin şəffaf şəraitdə, müxtəlif ictimai qrupların iştirakı ilə formalaşdırılması, inkişaf edən ölkələrin reallıqlarından kifayət qədər uzaq olan ideal mənzərədir. Bu ölkələrin bir çoxunda milli hökumətlər səviyyəsində "gender meynstriminq" davamlı strategiya kimi yox, bir dəfəlik konkret layihə çərçivəsində tətbiq edir.

9.7 Gender bərabərsizliyi göstəricisi və insan inkişafı

Gender bərabərliyi sahəsində **ayrı-ayrı** ölkələrdə mövcud vəziyyəti araşdırmaq, zamanla onun dinamikasını izləyə bilmək və ayrı-ayrı ölkələr və dünya regionları arasında müqayisələr aparmaq məqsədi ilə BMT-nın İnsan İnkişafı Hesabatları 1995-ci ildən başlayaraq GDI (Gender related Development Index) və GEM (Gender Empowerment Measure) göstəricilərindən istifadə etmişdir. Hər iki göstəricinin müsbət tərəfləri ilə bərabər metodoloji nöqsanları da mövcud idi. Ən son olaraq, 2010-ci ildə İnsan İnkişafı Hesabatının 20-ci yübiley buraxılışı qadınlarla kişilərin nailiyyətləri arasında olan uyğunsuzluğu ölçən göstəricini (Gender Inequality İndex/GII) təqdim etmişdir. GII gender bərabərsizliyi üzündən insan inkişafına vurulan ziyanı əks etdirir. Ölkənin Gender Bərabərsizlik İndeksinin 0-a yaxın olması gender bərabərsizliyinin aşağı səviyyədə, 1-ə yaxın olması isə yuxarı səviyyədə olmasını göstərir[14]. Cədvəl 1 Əfqanistan, Norveç, Qətər, Azərbaycan və Ukrayna üçün Gender Bərabərsizliyi İndeksi və İnsan İnkişafı İndeksi əsasında mövqeyi təqdim edir.

[14] Human Development Reports, Gender Inequality Index, http://hdr.undp.org/en/statistics/gii/

Cədvəl 1

	Gender Bərabərsizliyi İndeksi	İnsan İnkişafı İndeksinə görə sıra sayı
Əfqanistan	0.707	172 (*insan inkişafı səviyyəsi çox aşağıdır*)
Norveç	0.075	1 (*insan inkişafı səviyyəsi çox yüksəkdir*)
Azərbaycan	0.314	76 (*insan inkişafı səviyyəsi yüksəkdir)*
Qətər	0.549	37 (*insan inkişafı səviyyəsi çox yüksəkdir*)
Qazaxıstan	0.334	68 *(insan inkişafı səviyyəsi yüksəkdir)*

Mənbə: BMT-nin 2011-ci il üçün İnsan İnkişafı Hesabatı[15]

Göründüyü kimi, çox yüksək İnsan İnkişafı İndeksinə malik olan ölkədə (Norveç) gender bərabərsizliyi az müşahidə olunur (GII olduqca aşağıdır). İnsan İnkişafı İndeksi çox aşağı olan ölkədə (Əfqanistan) isə gender bərabərsizliyi olduqca kəskindir. İnsan İnkişafı baxımından orta mövqelərdə yerləşən Azərbaycan və Qazaxıstanda GII səviyyəsi də yaxındır. Bu arada, Qətərə aid göstəricilər ümumi tendensiyadan fərqlənir, olkənin İnsan İnkişafı İndeksi çox yüksəkdir, lakin GII qadınlarla kişilərin nailiyyətləri arasında kəskin bərabərsizliyin olduğunu nümayiş etdirir. Bunun səbəbi Qətərin parlamentində qadın deputatların olmamasıdır.

Gender Bərabərsizliyi İndeksi (Gender Inequality Index, GII) üç sahədə qadınlarla kişilərin nailiyyətləri arasında olan uyğunsuzluqların statistik göstəriciləri əsasında hesablanır. İndeks üç sahəni -- reproduktiv sağlamlıq, səlahiyyətlərin genişləndirilməsi və əmək bazarını əhatə edir. Reproduktiv sağlamlıq sahəsində vəziyyət iki göstərici əsasında müəyyənləşdirilir: onlardan biri ana ölümü, digəri isə yeniyetmələr arasında nəsilvermə əmsalıdır. Səlahiyyətlərin genişləndirilməsi sahəsinə aid məlumat yenə də iki göstərici (parlamentdə iştirak və təhsil səviyyəsi) əsasında hesablanır. Nəhayət, əmək bazarı sahəsində cəmi bir göstəricidən (işçi qüvvəsində iştirak səviyyəsi) istifadə olunur.

9.8 Azərbaycan: gender bərabərliyi və insan inkişafı

Azərbaycan Respublikasında kişi və qadınların hüquq bərabərliyi ölkənin 1995-ci ildə qəbul olunmuş əsas qanunu olan Konstitusiya tərəfindən təmin edilir. Konstitusiyanın 25-ci maddəsi kişi və qadınların bərabər hüquq və azadlıqlarını təsbit edir və insan və vətəndaşların hüquq və azadlıqlarının cinsi mənsubiyyətə görə məhdudlaşdırılmasını qadağan edir. Kişi və qadın arasında hüquq və azadlıqlar bərabərliyi və cinsi mənsubiyyətə görə ayri seçkili-

[15] Cədvəl 1-də təqdim edilən rəqəmlər BMT-nin 2011-ci il üçün İnsan İnkişafı Hesabatından götürülüb, http://hdr.undp.org/en/media/HDR_2011_EN_Table4.pdf

yin qadağan olunması Əmək Məcəlləsi, Ailə Məcəlləsi, Cinayət Məcəlləsində və digər qanuni aktlarda öz əksini tapır. 2006-ci ildə qəbul olunmuş "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanunun məqsədi cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılması, kişi və qadınlara ictimai həyatın siyasi, iqtisadi, sosial, mədəni və digər sahələrində bərabər imkanların yaradılması və gender bərabərliyinin təmin edilməsi idi[16]. 2010-cu ilin oktyabrında Azərbaycan Respublikasının Milli Məclisi "Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu" qəbul etmişdir. Azərbaycan dövləti həmçinin gender bərabərliyi sahəsində bütün əsas beynəlxalq sazişlərə, o cümlədən CEDAW konvensiyasına, Pekin Bəyannaməsi və Fəaliyyət Platformasına, Minilliyin Bəyannaməsi və Minilliyin İnkişaf Məqsədlərinə qoşulmuşdur.



Azərbaycanın Gender Bərabərsizliyi İndeksi (GII 0.314) qlobal göstəricidən (GII 0.492) olduqca aşağı, Avropa və Orta Asiyaya aid regional gostəricidən isə (GII 0.311) bir qədər yuxarıdır. Gəlin İndeksin tərkibində olan məlumatlarla daha yaxından tanış olaq.

Göründüyü kimi, reproduktiv sağlamlıq sahəsində hər iki göstərici üzrə Azərbaycanda mövcud olan vəziyyət regional rəqəmlərlə müqayisədə daha təhlükəlidir. Ana ölümü halları qadınların aldığı səhiyyə xidmətlərinin lazımi səviyyədə göstərilmədiyindən, əhali arasında ana sağlamlığına dair məlumatlandırma səviyyəsinin aşağı olduğundan xəbər verir. Azərbaycan

[16] "Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" qanun, 150 IIIQ, maddə 1, http://www.meclis.gov.az/?/az/legislation/view/867

Demoqrafiya və Sağlamlıq Sorğusunun (2006) nəticələrinə əsasən səhiyyə xidmətlərindən istifadə etməkdə ən çox çətinliklərlə rastlaşan qadınlar Dağlığ Şirvan, Lənkəran və Aran bölgələrində yaşayır.

Cədvəl 2

Gender Bərabərsizliyi İndeksi		Reproduktiv sağlamlıq		Səlahiyyətlərin genişləndirilməsi			Əmək bazarında iştirak	
mövqe	*göstərici*	*Ana ölümü (hər 100,000 nəfər diri doğulana ana ölümü)*	*Yeniyetmələr arasında nəsilvermə əmsalı (15-19 yaşında hər 1000 qadın arasında 15-19 yaşda doğanların sayı)*	*Parlamentdə qadın deputatlar (%)*	*25 yaşından yuxarı əhali arasında ən azı orta təhsili bitirmişlər (%)*		*İşçi qüvvəsində iştirak (%)*	
					Q	K	Q	K
	Azərbaycan							
50	0.314	38	33.8	16.0	65.4	61.9	59.5	66.8
	Avropa və Orta Asiya regionu							
50	0.311	29	28.0	13.4	78.0	83.3	49.7	67.8

Sağlamlıq sahəsində qadınların rastlaşdığı digər ciddi problem İndeksə daxil olan göstəricilərdə bilavasitə əks edilməmişdir. Gender Bərabərsizliyi İndeksinin əhatə etmədiyi selektiv (gələcək uşağın cinsini seçmək məqsədi ilə aparılan) abortlar praktikası minlərlə azərbaycan qadının reproduktiv və ümumi sağlamlığına ciddi ziyan vurur. BMT-nin Əhalin Fondunun məlumatına əsasən 2011-ci ildə Azərbaycanda hər 100 qıza 117 oğlan doğulurdu. 2012-ci il yanvar ayının 1-nə Azərbaycan Respublikasının əhalisi tərkibində kişilər 49.6%, qadınlar isə 50.4% təşkil edirdi. Lakin müasir texnologiyalardan sui-istifadə edən bu təhlükəli praktika nəticəsində 20-25 ilə ölkəmiz ciddi gender disbalansı ilə üzləşəcək. Patriarxal dəyərlər sistemi qız uşaqlarının yaşamaq hüququnu və anaların sağlam həyat sürmək hüququnu tanımayaraq onları insan inkişafı üçün əsas olan seçimlərdən məhrum edir.

Yeniyetmələr arasında gənc anaların nisbətən yüksək sayı Azərbaycan üçün son illərdə aktuallaşan erkən nikahlar problemi ilə bağlıdır. Yeniyetmə analığı ana və uşaq sağlamlığı üçün xüsusi risk zonasıdır. Tədqiqatların nəticələrinə əsasən erkən nikahlar həmçinin qızların orta təhsili yarımçıq buraxmasının əsas səbəblərindən biridir. Erkən nikahlar problemi timsalında gender bərabərsizliyinin

insan inkişafı ilə sıx əlaqədə olduğunu aydın şəkildə görmək olar. Erkən yaşlarında ailələr tərəfindən nikahlara məcbur edilənlər adətən təhsillərini davam etdirmək imkanından məhrum olur. Bu qızların gələcəkdə istədikləri sahədə ixtisas sahibi olaraq gəlir gətirən fəaliyyətlə məşğul olmaq şansları azalır. Milli qanunvericilikdə qadağan edilən erkən nikah praktikası qeyri-qanuni yollarla, rəsmi sənədləşdirmə aparılmadan həyata keçirilir. Beləliklə erkən nikahda olan qızların gələcəkdə özlərinin və uşaqlarının hüquqlarını qorumaq üçün qanuni vasitələrdən istifadə etmək imkanları məhdudlaşır. Erkən nikahların aradan qaldırılması və nikaha məcbur edilmiş qadınların hüquqlarını qorumaq məqsədi ilə 2011-ci ildə Milli Məclisin qərarı ilə Azərbaycanda qızlar üçün nikah yaşının həddi bir il artırılaraq 18 yaşa çatdırıldı və Cinayət Məcəlləsinə qadını nikaha məcbur etməyə görə məsuliyyət nəzərdə tutan maddə əlavə edilidi.

Qadınların səlahiyyətlərinin genişləndirməsi sahəsində Azərbaycana aid birinci göstərici (parlamentdə qadın deputatların faizi) regional səviyyədən daha yüksəkdir. Azərbaycan dövlət idarəçiliyi sistemində çalışanlar arasında qadınlar hələ də azlıq təşkil edir. 2004-cü ildə Azərbaycanda bələdiyyə seçkilərində iştirak edən qadın namizədlər cəmi 4% təşkil etmişdi. 2009-cu ildə keçirilmiş bələdiyyə seçkiləri nəticəsində isə seçilənlər arasında qadınların payı 26 faizə qədər qalxmışdı.

Azərbaycan dövlət idarəçiliyi sistemində vəziyyət gender bərabərliyindən kifayət qədər uzaqdır. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Məsələləri üzrə Dövlət Komitəsinin sədri və Ombudsman dövlət idarəçiliyinin yuxarı pillələrində çalışan yeganə qadın məmurlardır. Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən[17] 2012-ci ildə[18] Azərbaycan Respublikasının dövlət qulluğunda qadınlar 28%, kişilər isə 72% təşkil edirdi. Qadınlar əsasən yardımçı vəzifələrdə, kişilər isə inzibati vəzifələrdə çalışır. 1-4 təsnifatlar üzrə (rəhbər vəzifələr) inzibati vəzifələrdə çalışanlar arasında kişilər mütləq əksəriyyət (72.6%) təşkil edirdi. Azərbaycanda dövlət qulluğu sistemində çalışan hər üç qadından biri yardımçı vəzifədə çalışırdı.

Fikrinizcə, parlament deputatları arasında qadınların faizi ümumən qadınların qərarvermə prosesində fəal iştirak etməsinin göstəricisi hesab oluna bilərmi? Sizcə, bunu müəyyən etmək üçün başqa hansı göstəricilərə müraciət etmək olar?

Azərbaycan Respublikasında cinsindən asılı olmayaraq bütün vətəndaşlara pulsuz icbari ümumi orta təhsil almaq hüququ dövlət tərəfindən təmin edilir. Ölkədə qadınların və kişilərin savadlılıq səviyyəsi 100%-ə yaxındır (kişilər arasında 99.9%, qadınlar arasında 99.7%). Azərbaycanın təhsil sistemində qadınla-

[17] Azərbaycanda qadınlar və kişilər 2012, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi, Bakı, 2012, səh. 97

[18] 2012-cu il yanvarın 1-nə olan statistik məlumatlara görə.

rın iştirakı yüksək səviyyədə olsa da, təhsil pillələri ilə yuxarı qalxarkən şagirdlər və tələbələr arasında qadınların sayı azalır. Orta və ya daha yüksək təhsili bitirənlərin sayı baxımından milli göstəricilər regional rəqəmlərdən aşağıdır (Cədvəl 2). 2011-2012-ci tədris ilinin əvvəlinə dövlət ali təhsil müəssisələrində oxuyan tələbələr arasında qadınlar 47.6%, kişilər 52.4% təşkil etmişdir.

Nəhayət, qeyd etməyə dəyər ki, regional göstəricilərlə müqayisədə Azərbaycanda qadınların işçi qüvvədə iştirak səviyyəsi olduqca yüksəkdir və kişi və qadınların işçi quvvədə iştirakı Azərbaycanda daha balanslıdır. Eyni zamanda, İndeksdən kənarda qalan, lakin Azərbaycanda qadınların iqtisadiyyatda iştrakının mühüm göstəricisi olan orta aylıq əmək haqqı kişilərlə qadınların arasında olan iqtisadi bərabərsizliyi nümayiş etdirir: 2011-ci ildə muzdla işləyənlər arasında qadınların orta aylıq əmək haqqı kişilərin orta aylıq əmək haqqına nisbətdə yalnız 51,1% idi. Ölkə iqtisadiyyatında qadınlar və kişilərin yüksək konsentrasiyası olan fəaliyyət sahələri mövcuddur. Qadınlar əsasən dövlət səhiyyə və təhsil müəssisələrində və sosial xidmətlər sahəsi kimi nisbətən az gəlirli sahələrdə cəmləşir. Müstəqillik dövründə Azərbaycan iqtisadiyyatında gedən mürəkkəb proseslər gender münasibətlərinə də təsir göstərmişdir. Kişilərin əmək miqrasiyası, qadınların qeyri-formal iqtisadiyyatda iştirakı, torpaq islahatının əmək bölgüsünə təsiri və digər proseslər ailədə və cəmiyyətdə gender əsaslı vəzifələrin və güc balansının dəyişməsinə səbəb olmuşdur[19].

Qadınlara qarşı zorakılıq insan inkişafına aid olan bütün sahələrə təsir edir. Azərbaycanda Qadınlara Qarşı Zorakılıq Sorğusunun nəticələrinə görə respondentlərin 24%-i nə vaxtsa zorakılığa məruz qalmışdır. Əksər hallarda qızlara və qadınlara qarşı zorakılığı törədənlər zorakılıq qurbanlarının yaxınlarından biridir. Qadınların 15%-i nə vaxtsa fiziki, 7%-i seksual və 25%-i psixoloji zorakılığa məruz qalıb. Bir çox hallarda zorakılıq qurbanları müxtəlif xəstəliklərdən əzab çəkir, təhsil və iş imkanlarından istifadə etmək qabiliyyətindən məcburi şəkildə məhrum edilir. Zorakılıq qurbanlarının əksəriyyəti yaşadıqları ağır təcrübəni heç kəslə bölüşməmişdi və yardım üçün dövlət orqanlarına və ya qeyri-hökümət təşkilatlarına müraciət etməmişdi[20].

[19] Azərbaycanda gender münasibətləri: meyllər və cəhdlər, Azərbaycan Respublikasında İnsan İnkişafı Haqqında Hesabat, 2007

[20] National Survey Report on Violence Against Women in Azerbaijan, 2008, UNFPA-SCFWCA

Müzakirə üçün:

Zəhranın 46 yaşı var. O, Sabirabad kəndlərinin birində anadan olub. Orta məktəbi də orada bitirib. İxtisas seçiminə gəldikdə Zəhranın atası onunla məsləhətləşmədən sənədlərini Pedaqoji Texnikuma verdi. Lakin Zəhra müəllimlik peşəsinə maraq göstərmirdi. Pedagoji texnikumda bir il təhsil alandan sonra Zəhra yenidən imtahan verib Gəncə Kənd Təsərrufatı İnstitutuna daxil oldu. Ailə üzvləri onun seçimindən narazı idi. Zəhra təhsilini bitirib qonşuluqdakı kənddə aqronom işlədi. Orada ailə qurdu. Bir neçə il bundan sonra kəndin camaatı onu bir neçə kəndi birləşdirən bələdiyyənin üzvü seçdi. Zəhra iki il orada çalışdı. Öncə xüsusilə kənddə fəaliyyət göstərən məktəbin və bağçanın problemləri ilə məşğul idi. İşə təzə başlayanda Zəhra müəyyən çətinliklərlə qarşılaşdı. Özü bu barədə belə danışır: "Məsələn, iclaslara gedirdim, insanlarla daimə ünsiyyətdə idim, bəziləri bunu düzgün qəbul etmirdi. Qadının ictimai sahədə fəal olduğuna mənfi baxan var idi. O zaman həyat yoldaşım mənə hər dəstək oldu, onun mənə olan inamı mənə əlavə qüvvə verdi". Bir neçə ildən sonra bir qrup kənd sakini pay torpaqlarını (40 sotdan 1 hektara qədər) birgə işlətmək qərarına gəldi. Onların biri Zəhra idi. Mütəxəssis kimi o qərara gəldi ki, birgə əkin işləri aparmaq daha səmərəli olar. Bunun bir neçə səbəbi var idi. Bundan qabaq kənddə kiçik torpaq sahələrinin sahibləri təklikdə bəzən taxıl, bəzən pambıq əkirdi. Təkbaşına suvarma işlərini və digər aqro-texniki işləri aparmaq çox baha başa gəlirdi. Zəhra və dostları kooperativ yaratdı. Kooperativ iştirakçıları kooperativin gəlirindən torpaq payına əsasən pay alırdılar. Bu, Azərbaycanda ilk istehsal kooperativlərdən biri idi.

Suallar:

1. ***Zəhra həyatında hansı seçimlərin qarşısında durdu?***
2. ***Gender bərabərsizliyi Zəhranın seçimlərinə necə təsir göstərdi?***
3. ***Öyrəndiyiniz gender və inkişaf siyasətlərinə hansı yanaşma Zəhranın problemlərini həll etməkdə yardımçı ola bilərdi?***